**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**XALİQ RAMİZ OĞLU QOCAYEV**

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ-PROSESSUAL QANUNVERİCİLİYİ SFERASINDA BEYNƏLXALQ HÜQUQ NORMALARININ İMPLEMENTASİYASI

**İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2015**

Dissertasiya işi AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru,**<br>**professor Ə.İ.ƏLİYEV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru,**<br>**professor O.F.ƏFƏNDİYEV** |
| | **hüquq üzrə fəlsəfə doktoru**<br>**H.D.QƏMBƏROV** |
| **Aparıcı təşkilat:** | **Milli Aviasiya Akademiyasının**<br>**"Hüquqşünaslıq" kafedrası** |

Dissertasiya işinin müdafiəsi "____" "_______________" 2015-ci il tarixdə saat "______" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" "_______________" 2015-cİ il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının**
**elmi katibi, hüquq üzrə fəlsəfə doktoru: Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat işinin aktuallığı.** Hazırda ölkəmiz həm regionda, həm də dünyada iqtisadi baxımdan intensiv iqtisadi inkişafı ilə seçilən ölkələr sırasındadır. İqtisadi inkişafla paralel qanunun aliliyi, hüquqi dövlət quruculuğu və ən əsası da insan hüquqlarının müdafiəsi məsələsi daim diqqət mərkəzində olan məsələdir. İnsan hüquqlarının müdafiəsi və təmin edilməsində beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə tətbiqinin daha da genişləndirilməsi məqsədəmüvafiq hesab olunur. Haqlı olaraq qeyd edilir ki, beynəlxalq və milli hüquq normalarının qarşılıqlı nisbət məsələlərinin təhlili bir sıra aspektlərdən əhəmiyyətlidir. İlk növbədə, nəzəri cəhətdən bu normaların qarşılıqlı şəkildə öyrənilməsi və müqayisə edilməsi həyata keçirilir. İkincisi, bu sahədə beynəlxalq standartların dövlətdaxili qanunvericilikdə rolu müəyyən edilir. Üçüncüsü, milli qanunvericilik, bir tərəfdən, beynəlxalq standartlara uyğunlaşdırılırsa, digər tərəfdən, başqa dövlətlərin daxili qanunvericiliyi ilə müqayisə edilir, bu isə dövlətlərin milli qanunvericiliklərinin kifayət qədər yaxınlaşmasına səbəb olur, qanunvericiliklər arasında kolliziyalar aradan qalxır[1].

Azərbaycan Respublikasının (AR) Avropa Şurasına üzv olmasından sonra, həm yüksək instansiya məhkəmələrində, həm də birinci instansiya məhkəmələrində beynəlxalq hüquq normalarına istinad, həmin normaların tətbiqi məsələsi aktuallaşmışdır. Lakin burada əsas məqsəd həmin normaların düzgün təfsir və tətbiq edilməsidir. Mülki prosesdə beynəlxalq hüquq normalarının tətbiqi, həmin normalara istinad mülki prosesin təkcə dövlətdaxili hüquq normaları ilə deyil, beynəlxalq hüquq normaları ilə tənzimləndiyini də göstərir.

Bütövlükdə beynəlxalq və dövlətdaxili hüququn tənzimetmə obyekti olan mülki prosesin səmərəli şəkildə nizamlanması, mülki prosesdə fiziki və hüquqi şəxslərin pozulmuş hüquqlarının bərpası müasir şəraitdə xüsusi aktuallıq kəsb edir. Respublikamızda insan və vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi vacib amildir. Müasir şəraitdə bu məsələnin həlli insan hüquq və azadlıqlarının müdafiəsi sferasında AR qanunvericiliyinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğunlaşdırmadan mümkün deyildir. AR Konstitusiyasının 12-ci maddəsinin 1-ci hissəsinə görə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, AR vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın 2-ci hissəsinə görə isə, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

[1] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2014, s. 76.



Hazırda mülki proses zamanı milli məhkəmələrimiz tərəfindən beynəlxalq hüquq normalarının tətbiqində müəyyən problemlər mövcuddur. Məhkəmələrin qarşısında çox vaxt, xüsusilə də kolliziya hallarında belə bir sual meydana çıxır – hansı beynəlxalq hüquq normasını seçməli və ya tətbiq etməli? Belə problemlərin həllini tapmaması müvafiq sferada həm nəzəri, həm də praktiki fəaliyyət tələb edir. Bu zaman beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı tənzimlədiyi mülki proseslə bağlı elmi araşdırmanın, bu istiqamətdə əhatəli tədqiqat işinin aparılması aktuallıq kəsb edir.

Tədqiqat işinin aktuallığını göstərən məsələlərdən biri də odur ki, Respublikamızda beynəlxalq hüquq normalarının tətbiqində konkret mexanizmlər mövcud deyildir. Konkret mexanizmlər dedikdə, beynəlxalq-hüquqi normaların, ilk növbədə beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin və beynəlxalq müqavilə normalarının milli hüquq sistemində implementasiyası ilə bağlı tədbirlər sistemi nəzərdə tutulur. Bu prosesdə milli məhkəmələr tərəfindən həmin normaların tətbiqi vacib şərtdir. Ümumiyyətlə, məhkəmələr tərəfindən beynəlxalq hüquq normalarının tətbiqi, əksər dövlətlərdə olduğu kimi, Respublikamızda da tam qənaətbəxş səviyyədə deyildir.

Beynəlxalq hüquq normalarının milli məhkəmələr tərəfindən tətbiqi məsələsində ortaya çıxan əsas problemlərdən biri, beynəlxalq normaların düzgün təfsir olunmaması, məzmun və mahiyyətinin düzgün şərh edilməməsidir. Bu zaman belə bir nəticə meydana çıxır ki, beynəlxalq-hüquqi normaların tətbiqində dəqiq müəyyən edilmiş qanunvericilik və doktrinal göstərişlər olmadan mübahisəsiz, əsaslı və qanuni məhkəmə qərarı da mümkün olmur. Qeyd edilən problemlərin müntəzəm xarakter alması, əsasən də düzgün olmayan məhkəmə qərarının çıxarılması, uzun sürən məhkəmə çəkişmələri məhkəməyə müraciətlərin sayını azaltmaqla yanaşı, insanlarda məhkəmənin problem həll etmə bacarığına inamı da azalda bilər. Bu səbəbdən qeyd edilən problemlə qarşılaşmamaq üçün effektiv fəaliyyət mexanizmlərinin işlənib hazırlanması zəruridir.

Yuxarıda qeyd etdiyimiz kimi, insan hüquqlarının müdafiəsi vacib məsələdir. Məhkəmənin qərarı əsaslı, qanuni olsa belə, onun icraata yönəldilməsi və icrası da aktual problemdir. Belə ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarı icra olunmursa, deməli hüquqları pozulmuş şəxsin subyektiv hüquqları və qanuni maraqları da qorunmur. Bu isə həm Konstitusiyaya, həm də qanunvericiliyə birbaşa zidd olan haldır. Digər bir məsələ ondan ibarətdir ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının icra olunmaması və ya natamam icrası insanlar arasında məhkəmələrə inamı azaldır. Bu isə ədalət mühakiməsinin və onunla bağlı olan digər hüquqi problemlərin genişlənməsinə gətirib çıxarır.

Beləliklə, milli məhkəmələrdə beynəlxalq-hüquqi normaların tətbiqi və bu prosesdə meydana çıxan problemlərin həlli aktual məsələdir. AR Konstitusiyasında qeyd edilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi isə ədalət mühakiməsi yolu ilə məhkəmələr tərəfindən həyata keçirilir. Bizim fikrimizcə, ədalət mühakiməsinin düzgün və effektiv şəkildə həyata keçirilməsi zamanı beynəlxalq-hüquqi normaların tətbiqi zəruri şərtdir.

Mülki proses sferasında dövlətdaxili qanunvericiliyin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması və həmin normaların dövlətdaxili hüquq sistemində realizəsi, xüsusilə də məhkəmələrin fəaliyyətində beynəlxalq hüquq normalarının tətbiqi AR-in mülki prosessual hüquq sisteminin inkişafında, mülki prosessual fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsində və ümumilikdə insan hüquq və azadlıqlarının müdafiəsində mühüm əhəmiyyət kəsb edir. Ona görə də, müvafiq məsələlərin hərtərəfli, müqayisəli şəkildə araşdırılması aktualdır.

Beynəlxalq mülki-prosessual hüquq normalarının AR-in hüquq sistemində implementasiyasını zəruri edən amillərdən biri də respublikamızın Avropa Şurasının sənədlərinə, xüsusilə də *İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında* Konvensiyaya (Avropa Konvensiyası) qoşulmasıdır. Öz məqsəd, vəzifə və məzmununa görə əsas və konseptual hüquqi akt hesab edilən Konvensiya fərdlərin hüquqlarının beynəlxalq səviyyədə müdafiəsi mexanizmini nəzərdə tutur. Avropa Konvensiyasının və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə 25 dekabr 2001-ci il tarixli Qanunla AR İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Avropa Məhkəməsi) qərarlarının məcburi qüvvəsinin tanınmasına prinsipial razılığını ifadə etmişdir. Bu hadisə AR Konstitusiyasının 60-cı maddəsinin (Hüquq və azadlıqların məhkəmə təminatı) tələblərinin praktiki baxımdan realizəsində mühüm addımdır.

Avropa Konvensiyasının və Avropa Məhkəməsi presedentlərinin milli məhkəmələr tərəfindən tətbiqi məsələsi milli normativ sənədlərdə də öz təsbitini tapmışdır. AR-in məhkəmə sisteminin müasirləşdirilməsi və AR-in bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında AR Qanununun tətbiq edilməsi barədə AR Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanında AR Ali Məhkəməsinə və digər yuxarı instansiya məhkəmələrinə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və onu məhkəmə təcrübəsində nəzərə almaları tövsiyə edilmişdir. AR Ali Məhkəməsi Plenumunun Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası müddəalarının və Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında 30 mart 2006-cı il tarixli Qərarında qeyd edilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı, Avropa Konvensiyası müddəalarını da rəhbər tutmalı və bu zaman Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər.



Tədqiqat işinin aktuallığını göstərən səbəblərdən biri də AR-in hüquq sistemində presedentin rəsmi olaraq hüququn mənbəyi hesab edilməsə də, milli məhkəmələrin fəaliyyətində Avropa Məhkəməsi praktikasına istinad edilməsidir. Beləliklə, Avropa Məhkəməsinin presedenti Azərbaycanda qanunvericiliyin tərkib hissəsinə çevrilib. Azərbaycan məhkəmələrinin qəbul etdiyi qərarların təhlili göstərir ki, Avropa Məhkəməsinin presedent hüququ Azərbaycanda hüququn tətbiqi təcrübəsində xüsusi yer tutur. Avropa Məhkəməsi qərarlarının icrası ilə bağlı ölkədə hüquq və azadlıqların məhkəmə sahəsində müdafiəsi üçün qanunvericilikdə institusional islahatlar aparılmışdır. Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları göstərir ki, Avropa Konvensiyasının tam şəkildə implementasiyası üçün zəruri tədbirlər görülür.

**Tədqiqat işinin obyektini** mülki proses sferasında beynəlxalq hüquq normalarının AR hüquq sistemində implementasiyası, **predmetini** isə mülki proses sferasında beynəlxalq hüquq normalarının AR hüquq sistemində realizəsi ilə bağlı hüquqi məsələlər təşkil edir.

**Tədqiqat işinin məqsədi** mülki proses sferasında beynəlxalq hüquq normalarının AR-in hüquq sistemində implementasiyası xüsusiyyətlərini müəyyən etmək və realizə prosesində meydana çıxa biləcək problemlərin həlli istiqamətində nəzəri əsaslar formalaşdırmaqdır. Qeyd edilən məqsədə nail olunması istiqamətində aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

- AR-in mülki-prosessual qanunvericiliyinin və beynəlxalq hüquq normalarının birgə tənzimetmə predmeti kimi mülki prosesin anlayışı və məzmununu müəyyən etmək;
- Beynəlxalq və dövlətdaxili hüquq normalarını özündə birləşdirən beynəlxalq mülki-prosessual hüququn hüquqi təbiətini aydınlaşdırmaq;
- AR-in mülki-prosessual qanunvericiliyinin sistemini müəyyən etmək;
- Beynəlxalq hüquq normalarının AR-in mülki-prosessual qanunvericiliyi sistemində yerini araşdırmaq;
- Mülki proses sferasında beynəlxalq və milli hüquq normalarının qarşılıqlı əlaqəsi problemini təhlil etmək;

- Beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının AR-in mülki-prosessual qanunvericiliyinin formalaşması və inkişafında rolunu öyrənmək;

- Beynəlxalq müqavilə normalarının AR-in mülki-prosessual qanunvericiliyinə təsir imkanlarını müəyyən etmək;

- Mülki proses sferasında beynəlxalq hüququn normalarının AR məhkəmələri tərəfindən tətbiqi xüsusiyyətlərinin müəyyən etmək;

- Beynəlxalq hüquq normalarının realizə forması kimi hüquqi yardımın mahiyyətini araşdırmaq;

- Mülki proses sferasında beynəlxalq hüquq normalarının realizəsinin nəticəsi kimi xarici məhkəmə qərarlarının tanınması və icrası məsələlərini təhlil etmək;

- Beynəlxalq və milli məhkəmə prosedurlarının qarşılıqlı əlaqəsinin beynəlxalq mülki-prosessual normaların milli-hüquqi realizəsindəki yerini aydınlaşdırmaq.

**Tədqiqat işinin metodoloji əsasını** dialektikanın kateqoriya və prinsipləri, o cümlədən hüquq elmində hamılıqla qəbul olunan ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir. Dissertasiyada daha çox formal-məntiqi metoddan (mülki proses sferasında beynəlxalq hüquq normalarının, AR-in mülki-prosessual qanunvericiliyinin sisteminin müəyyən edilməsində və bununla bağlı dövlətdaxili normativ aktların və AR-in beynəlxalq müqavilələrinin təhlilində), müqayisəli hüquq metodundan (AR-in mülki-prosessual qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğunluğunun müəyyən edilməsində) və tarixi metoddan (beynəlxalq hüquq normalarının AR-in mülki-prosessual qanunvericiliyi sistemində yerinin müəyyən olunmasında), sistemli analiz metodundan (AR-in mülki-prosessual qanunvericiliyi və beynəlxalq hüquq normaları sisteminin qarşılıqlı münasibətlərinin müəyyən edilməsində) istifadə edilmişdir. Bundan başqa tədqiqat işində konkret-sosioloji və digər elmi metodlar da tətbiq edilmişdir.

**Tədqiqat işinin nəzəri əsasları.** Tədqiqat işində beynəlxalq hüquq və mülki-prosessual hüquq sferasında tədqiqatlar aparan hüquqşünas alimlərin: B.L.Zimnenko, D.Çeşir, D.Harris, E.A.Osavelyuk, İ.M.Rəhimov, Ə.İ.Əliyev, Ə.İ.Sadıqov, Ə.Q.Məmmədov, X.Şak, İ.Zasid, İ.V.Drobyazkina, İ.M.Zaytsev, İ.V.Reşetnikova, L.Henkin, L.H.Hüseynov, L.Erades, L.X.Minqazov, M.A.Mövsümov, M.A.Vikut, M.K.Treuşnikov, N.M.Yurova, N.İ.Marışyeva, N.Q.Yeliseyev, P.Nort, R.F.Məmmədov, R.David, T.N.Neşatayeva, T.İ.Hüseynov, V.Ə.İbayev, V.V.Qavrilov, V.V.Yarkov və başqalarının əsərlərindən istifadə edilmişdir.



**Tədqiqat işinin normativ bazasını** mülki proses sferasında qəbul edilmiş beynəlxalq müqavilələr, qarşılıqlı hüquqi yardım haqqında AR-in ikitərəfli müqavilələri, AR-in mülki-prosessual qanunvericilik aktları və xarici dövlətlərin mülki proses sferasındakı normativ aktları təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi** onunla əsaslandırıla bilər ki, mülki proses sferasında beynəlxalq hüquq normalarının milli hüquq sistemində realizəsi məsələləri Azərbaycanın hüquq doktrinasında kompleks tədqiqat predmeti olmamışdır. Eyni zamanda tədqiqat işi beynəlxalq mülki-prosessual hüququn hüquq sistemində yeri, AR-in mülki-prosessual qanunvericiliyinin inkişafı və mülki proses sferasındakı beynəlxalq hüquq normalarının milli məhkəmələr tərəfindən tətbiqi ilə bağlı yeni yanaşmanı özündə ehtiva edir.

Tədqiqat işinin elmi yeniliyini özündə ifadə edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. Fiziki və hüquqi şəxslər arasındakı mülki xarakterli mübahisələrə məhkəmədə baxılması və həll edilməsi ilə bağlı milli və beynəlxalq mülki-prosessual hərəkətlərin və mülki prosessual hüquq münasibətlərinin məcmusu olmaqla mülki proses beynəlxalq hüquq normalarının və AR-in dövlətdaxili mülki-prosessual qanunvericiliyinin birgə tənzimetmə predmetini təşkil edir.

2. Beynəlxalq mülki dövriyyə iştirakçılarının hüquq və maraqlarını müdafiə edən və beynəlxalq hüquq normalarından ibarət olan beynəlxalq mülki-prosessual hüquq beynəlxalq prosessual hüququn müstəqil sahəsini təşkil edir. Onun müstəqil sahə kimi formalaşmasını şərtləndirən amil ondan ibarətdir ki, publik xarakterli hüquq normalarından ibarət olmasına baxmayaraq o, beynəlxalq sferada mövcud olan xüsusi münasibətlərin realizə forması kimi çıxış edir.

3. Beynəlxalq mülki-prosessual hüquq normalarının tənzimetmə obyektini təşkil edən prosessual münasibətlər məzmun baxımından beynəlxalq xarakterlidir, lakin bir qayda olaraq dövlətdaxili səviyyədə realizə olunur. Bu isə həmin münasibətlərin tənzimlənməsində dövlətdaxili mülki-prosessual hüquq normalarının iştirakını zəruri edir.

4. Beynəlxalq mülki-prosessual normaların bilavasitə tənzimetmə predmetini beynəlxalq mülki proses təşkil edir. Beynəlxalq mülki prosesin hüquqi məzmununa milli hüquq sistemlərinin, o cümlədən milli hüquq sistemi ilə beynəlxalq hüququn qarşılıqlı fəaliyyətindən irəli gələn mülki-prosessual hərəkət və münasibətlər daxildir.

5. AR-in mülki-prosessual qanunvericilik sistemi dövlətdaxili normativ aktlardan və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Beynəlxalq hüququn ümumtanınmış prinsipləri birbaşa olaraq bu qanunve-

ricilik sisteminə daxil olmasa da, onun formalaşmasında və prinsiplərinin müəyyən edilməsində hüquqi əsas qismində çıxış edir.

6. Mülki proses sferasında beynəlxalq hüquq normalarının AR-in hüquqi sistemində implementasiyası həmin normaların publik xarakterli olmasından irəli gələrək bir qayda olaraq inkorporasiya üsulu ilə baş verir. Lakin xüsusi münasibətlər sistemi ilə bağlılıq istinad üsulundan istifadə edilməsini istisna etmir.

7. Mülki-prosessual hüquq xüsusi (mülki) hüquqların realizə forması olması səbəbindən insan hüquqlarının müdafiəsi baxımından məhkəmələrdə mülki işlərə baxılması beynəlxalq və milli hüququn qarşılıqlı əlaqəsi fonunda həyata keçirilir. Bu zaman AR-in ümumi qaydasının (*ordre public*) qorunması şərti ilə üstünlük beynəlxalq hüququn normalarına verilməlidir.

8. Mülki proses sferasında beynəlxalq müqavilə normalarının milli məhkəmələr tərəfindən birbaşa, yəni tətbiq üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə tətbiq edilməsi müəyyən mənada mübahisə doğursa da, onlar AR-in mülki-prosessual qanunvericiliyinin məkana görə tətbiq hədlərini məhdudlaşdıra və ya genişləndirə bilər.

9. Beynəlxalq mülki prosesə aid prosessual münasibətlərin tənzimlənməsində beynəlxalq hüquq (müqavilə) normaları, onlarla AR-in mülki-prosessual qanunvericiliyi arasında ziddiyyətin olmasından asılı olmayaraq tətbiq edilir. Bu formada tətbiq mülki proses sferasında səmərəli hüquqi yardımı və xarici məhkəmə qərarlarının tanınması və icrasını təmin edir.

10. Mülki proses sferasında beynəlxalq hüquq normalarının AR-in hüquq sistemində implementasiyası, yalnız bu normaların milli səviyyədə tətbiq edilməsi və dövlətdaxili mülki-prosessual qanunvericiliyin həmin normalara uyğunlaşdırılması ilə nəticələnmir, həmçinin dövlətdaxili və beynəlxalq məhkəmə prosedurlarının qarşılıqlı fəaliyyətdə olması ilə müşayət olunur. Qarşılıqı fəaliyyət hər iki prosedurun bir tərəfdən, müstəqil olmasını, digər tərəfdən, beynəlxalq prosedurun hüquqi nəticəsi olan qərarların milli səviyyədə tanınmasını şərtləndirir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti**. Beynəlxalq mülki-prosessual hüquq normalarının milli səviyyədə tətbiqi məhkəmələrdə mülki işlərə baxılması və məhkəmə qərarlarının icrası vəziyyəti və gələcək inkişafı üçün yenilənmə və mövcud qanunvericilik bazasının məzmun və mahiyyətinin yenidən işlənib hazırlanmasını tələb edir. Fikrimizcə, tədqiqat işinin nəticələri konstitusiya, mülki hüquq, mülki-prosessual hüquq, dövlət və hüquq nəzəriyyəsi elmləri üçün xüsusi maraq kəsb edir.



Tədqiqat işinin praktiki əhəmiyyəti mülki-prosessual hüquq haqqında biliklərin sistemləşdirilməsi, genişləndirilməsi və dərinləşdirilməsi ilə bağlıdır. Müəllif müvafiq sferada qanunvericilik bazasının təkmilləşdirilməsini, məhkəmələrin mülki işlərə baxılması zamanı beynəlxalq normalara istinad etməsi və qanuni qüvvəyə minmiş məhkəmə qərarının effektiv şəkildə icrasına şərait yaradan mexanizmlərin işlənib hazırlanmasını təklif edir. Tədqiqat işindəki təklif və nəticələrdən məhkəmələrdə mülki işlərə baxılması təcrübəsində, hüquqi yardım göstərilməsi işində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi AMEA İnsan Hüquqları İnstitutunda geniş müzakirə edilmiş və əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiya mövzusu üzrə AR və Ukrayna Respublikasının nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan və rus) dərc etdirdiyi elmi əsərlərdə, o cümlədən beynəlxalq elmi konfransın materiallarında öz əksini tapmışdır.

**Tədqiqatın strukturu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Tədqiqat işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın quruluşu haqqında məlumat verilir.

Birinci fəsil **"Mülki proses Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyinin və beynəlxalq hüquq normalarının birgə tənzimetmə predmeti kimi"** adlanmaqla üç yarımfəsli özündə birləşdirir**.**

**Birinci yarımfəsildə** AR-in mülki-prosessual qanunvericiliyinin və beynəlxalq hüquq normalarının birgə tənzimetmə predmeti kimi mülki prosesin anlayışı və məzmunu tədqiq edilir. İlk olaraq "mülki proses" və "mülki məhkəmə icraatı" anlayışlarının hüquqi məzmunu və qarşılıqlı nisbəti müəyyən edilir. Bununla bağlı müxtəlif dövlətlərin hüquq doktrinasında mövcud olan yanaşmalar müqayisəli təhlil edilir. Qeyd olunur ki, mülki proses ədalət mühakiməsinin xüsusi bir forması olmaqla, mülki işlərə baxan digər orqanların fəaliyyətindən fərqlənir və öz spesifik prosessual formasına malikdir. Mülki məhkəmə icraatı, prosessual qaydası mülki-prosessual qanunvericiliklə müəyyən edilən ümumi yurisdiksiyalı məhkəmələrdə icraatdır. Bu və ya digər işə hansı qaydada baxılması və həlli mülki məhkəmə icraatının müəyyənliyi üçün əsasdır. Mülki işlərə məhkəmədə baxılması və həll edilməsi elə məhkəmə

icraatının həyata keçirilməsi, məhkəmə icraatı isə prosessual normalar vasitəsilə həyata keçirildiyindən, hesab etmək olar ki, mülki məhkəmə icraatı və ya mülki proses anlayışları arasında prinsipial fərq qoymağa ehtiyac yoxdur. Həm "proses", həm də "məhkəmə icraatı" anlayışları mülki işə məhkəmədə baxılması və həlli ilə bağlı münasibətləri özündə ehtiva edir.

Qloballaşma, iqtisadi inteqrasiya, insanlar arasında ünsiyyətin təkmilləşməsi, hüquq qarşısında yeni vəzifələrin icrası üçün beynəlxalq hüquq normalarından istifadə olunmasını zəruri edir. Hüquq sistemlərinin beynəlmiləlləşməsi də bu zərurətin nəticəsi olaraq meydana çıxır. Hazırda mülki proses beynəlxalq hüquq normalarının birbaşa tənzimetmə sferasına daxil olan məsələlərdən biridir. Mülki proses sferasında münasibətlərin beynəlxalq hüquq normaları ilə tənzimlənməsi beynəlxalq mülki-prosessual hüququn formalaşmasına gətirib çıxarmışdır. Onun normaları dövlətdaxili mülki prosesin standartlarını, mülki proses iştirakçılarının hüquqi statusunu, beynəlxalq hüquq normalarının tətbiqi qaydalarını, hüquqi yardım, qərarların tanınması və icrası kimi məsələləri müəyyən edir, həmçinin mülki proses sferasında hüquqyaradıcılığı və hüquqi tətbiq fəaliyyətini təkmilləşdirir.

AR-də mülki prosesdə, həm proses gedişində, həm də yekun qərar qəbulunda beynəlxalq hüquq normalarına istinad olunması tendensiyası artmaqdadır. Bunun bir çox obyektiv səbəbləri var. *Birincisi,* AR bir çox beynəlxalq müqavilələrin iştirakçısıdır və bu həmin müqavilə normalarının realizəsi üçün əsasdır. *İkincisi,* hüquqlarının bərpası ilə bağlı məhkəməyə müraciət edən şəxsin beynəlxalq hüquq normalarına əsaslana bilməsidir. Hesab edilir ki, milli məhkəmələr tərəfindən mülki prosesdə beynəlxalq hüquq normalarına istinad edilməsi, həm hüquq sistemimizin təkmilləşməsinə, həmçinin çıxarılan məhkəmə qərarının daha da əsaslı və mükəmməl olmasına şərait yaradır. İnsan hüquq və azadlıqlarının effektiv şəkildə qorunması naminə mülki proses həm beynəlxalq, həm də dövlətdaxili hüquq normaları ilə nizama salınmalıdır.

Beynəlxalq hüquq normalarının birbaşa obyekti qismində beynəlxaq mülki proses çıxış edir. Beynəlxalq mülki proses dedikdə, mülki hüquqların realizəsi forması olan publik hüquq münasibətləri başa düşülür. Beynəlxalq mülki proses üçün aşağıdakı əlamətlər xarakterikdir: a) xarici və ya beynəlxalq elementə malik olmaq; b) fiziki və hüquqi şəxslərin mülki hüquqlarının müəyyən edilməsinə və müdafiəsinə xidmət etmək; c) publik xarakter daşımaq; ç) dövlət orqanlarının və beynəlxalq orqanların qarşılıqlı əlaqə və fəaliyyətini əhatə etmək.

Anlayış aparatındakı "proses" termini predmetin prosessual xarakterli məsələlərdən ibarət olmasını, "beynəlxalq" termini isə bu münasibətlərin



beynəlxalq sferada baş verməsini ifadə edir. "Mülki" termini prosessual məsələlərin xüsusi xarakterli münasibətlərlə bağlı olmasını ifadə edir. Bu, beynəlxalq mülki prosesi ümumi xarakterli və ya dövlətlərarası mübahisələrlə bağlı olan beynəlxalq prosessual hüquqdan fərqləndirmək baxımından əhəmiyyətlidir. Beynəlxalq mülki prosesin fəaliyyət sferasına aşağıdakı məsələlər daxildir: 1) mülki işlər üzrə beynəlxalq məhkəmə aidiyyatı; 2) xarici fiziki və hüquqi şəxslərin, o cümlədən xarici dövlət və onun diplomatik nümayəndəliklərinin, beynəlxalq təşkilatların mülki-prosessual hüquqi vəziyyəti; 3) mülki proses sferasında hüquqi yardım: məhkəmə sübutlarının alınması və xarici məhkəmə tapşırıqları; 4) mülki işlər üzrə xarici məhkəmə qərarlarının; 5) mülki proses sferasınad beynəlxalq və milli məhkəmə prosedurlarının qarşılıqlı əlaqəsi.

**İkinci yarımfəsildə** mülki prosesi tənzim edən beynəlxalq hüquq normalarının sistemi kimi beynəlxalq mülki-prosessual hüququn anlayışı və hüquqi təbiəti ilə bağlı məsələlər tədqiq edilir. Burada beynəlxalq mülki prosessual hüququn hüquq sistemində yeri ilə bağlı hüquq ədəbiyyatında mövcud olan yanaşmalar və mövqelər müqayisəli təhlil olunur. Qeyd olunur ki, beynəlxalq mülki proses və beynəlxalq mülki-prosessual hüquq anlayışlarını fərqləndirmək lazımdır. Hüquq ədəbiyyatında bir qayda olaraq bu anlayışların məzmunu eyniləşdirilir və onlar sinonim anlayışlar kimi istifadə olunur.

Beynəlxalq mülki-prosessual hüquq özündə xarici ünsürlü fiziki və hüquqi şəxslərin iştirak etdiyi mübahisələrə məhkəmədə və arbitrajlarda baxılması, həll edilməsi və həmin mübahisələr üzrə məhkəmə qərarlarının tanınması və icrası, müxtəlif dövlətlərin məhkəmələri arasında hüquqi yardım göstərilməsi ilə bağlı məhkəmələr və prosesin digər iştirakçıları arasında yaranmış prosessual hərəkət və beynəlxalq mülki-prosessual hüquq münasibətlərini tənzimləyən dövlətdaxili və beynəlxalq hüquq normalarının məcmusudur. Başqa sözlə, beynəlxalq mülki-prosessual hüquq məhkəmə icraatının həm məzmununu-proses iştirakçılarının fəaliyyətini və onların qarşılıqlı münasibətlərini, həm də fəaliyyətin prosessual formasını tənzimləyir. Beynəlxalq mülki-prosessual hüquq normalarının tətbiqi zamanı onun məzmunu beynəlxalq mülki proses formasına keçir. Başqa sözlə, beynəlxalq mülki-prosessual hüquq və beynəlxalq mülki proses arasındakı qarşılıqlı əlaqə, dialektik xarakter daşıyan məzmunun formaya keçməsində ifadə olunur. Ona görə də bu anlayışları qarşı-qarşıya da qoymaq olmaz.

Müasir beynəlxalq hüquqda mülki prosesin əsas tendensiyalarından biri müvafiq sferada prosedur və qaydaların tədricən yaxınlaşması, onların unifikasiyasıdır, yəni ümumi, beynəlxalq prosessual qayda və reqlamentlərin yaradılmasıdır. Digər tərəfdən, prosessual hüquq kimi

mürəkkəb sferanın unifikasiyasına dövlətlər belə münasibət bildirirlər ki, bütün hüquq sistemləri prosessual hüququ publik hüquqa aid edirlər və bu sahədə kolliziya probleminin yaranmasını və xarici dövlətin qanunvericiliyinin tətbiqini istisna edirlər.

Beynəlxalq mülki-prosessual hüququn məzmunu genişdir. Beynəlxalq hüquq normaları milli mülki prosesin standartlarını və mülki məhkəmə icraatının konkret qaydalarını müəyyənləşdirir, belə standartlar isə beynəlxalq müqaviləyə qoşulan dövlət üçün məcburidir. Bundan başqa, beynəlxalq hüquq normaları mülki proses iştirakçılarına əlavə təminatlar verir. Hesab edilir ki, beynəlxalq mülki-prosessual hüququ yalnız xarici elementin iştirakı ilə məhdudlaşdırmaq düzgün olmazdı.

Beynəlxalq hüquq sisteminin özəlliyi ondadır ki, onun normaları beynəlxalq səviyyədə yaranır, lakin realizəsi həm beynəlxalq, həm də dövlətdaxili səviyyədə həyata keçirilir. Tətbiq olunan dövlətdaxili realizə mexanizmləri beynəlxalq normaların milli səviyyədə realizəsi vasitələridir. Beynəlxalq hüquq öz vəzifəsini icra etmək üçün daim daxili hüquqa müraciət etməlidir.

Beynəlxalq mülki-prosessual hüququn əhəmiyyəti mülki prosesdə meydana çıxan çatışmazlıqların, mübahisəli qərarların ləğvi, subyektlərin hüquqlarının effektiv müdafiəsinin təmin olunması ilə müəyyən edilir. Beynəlxalq mülki-prosessual hüquq dedikdə, beynəlxalq prosessual hüquq sisteminin institutu olan və şəxsiyyətin və cəmiyyətin hüquq və maraqlarını müəyyən edən və müdafiə edən, milli və beynəlxalq məhkəmə orqanlarının qarşılıqlı əlaqəsi və qarşılıqlı təsirini tənzimləyən beynəlxalq və dövlətdaxili hüquq normalarının kompleksi başa düşülür. Bu kontekstdə beynəlxalq mülki proses özündə iki istiqamətdə tənzimetməni həyata keçirən: xarici elementin iştirakı ilə baxılan işlərdə müxtəlif dövlətlərin yurisdiksiya orqanlarının qarşılıqlı əlaqəsi və qarşılıqlı təsirini tənzimləyən normaları və müxtəlif dövlətlərdən olan hüquqi və fiziki şəxslərin iştirakı ilə işlərə baxan beynəlxalq orqanların və milli yurisdiksiya orqanlarının qarşılıqlı fəaliyyətini tənzimləyən normaları birləşdirir.

Bir sözlə, beynəlxalq mülki-prosessual hüquq müvafiq olaraq öz xarakterinə görə ümumi-hüquqi olan hüquq normalarını özündə birləşdirsə də, həmin normalar beynəlxalq sferada baş verən qeyri-dövlət və ya xüsusi münasibətlər sferasında fəaliyyət göstərir və fiziki və hüquqi şəxslərin mülki hüquqlarının müəyyən edilməsinə və müdafiəsinə xidmət edir. Göründüyü kimi, beynəlxalq mülki-prosessual hüquq beynəlxalq xüsusi hüquq münasibətlərinin prosessual müdafiə forması qismində çıxış edir, amma beynəlxalq xüsusi hüquq sisteminin ünsürü deyildir. Başqa sözlə, beynəlxalq



mülki-prosessual hüququn predmetini xarici və ya beynəlxalq elementin iştirak etdiyi beynəlxalq mülki proses təşkil edir. Bu xüsusiyyətləri baxımından beynəlxalq mülki-prosessual hüquq beynəlxalq mülki prosesi tənzim etməklə, bütövlükdə beynəlxalq prosessual hüquqa məxsus olan əlamətlərə də malikdir. Nəticə etibarı ilə beynəlxalq mülki-prosessual hüquq beynəlxalq sferada mülki hüquqların müdafiəsi forması olmaqla bütövlükdə beynəlxalq prosessual hüququn müstəqil tərkib ünsürü qismində çıxış edir.

**Üçüncü yarımfəsildə** AR-in mülki-prosessual qanunvericiliyinin sistemi təhlil olunur. Qeyd olunur ki, mülki-prosessual qanunvericiliyin sistemi mülki-prosessual hüququn mənbələri ilə əlaqəlidir. AR Konstitusiyasının 48-ci maddəsinə müvafiq olaraq Mülki-Prosessual Məcəllənin (MPM) 1.1-ci maddəsində təsbit edildiyi kimi, mülki-prosessual qanunvericiliyin sisteminə, mülki-prosessual hüququn normalarını özündə əks etdirən hüquqi aktlar, Konstitusiya, MPM, qanunlar, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr daxildir. Qeyd olunan maddələrə əsasən, AR-in qanunvericilik sisteminin əsasında Konstitusiya dayanır. MPM-nin 1.2-ci maddəsində qeyd olunduğu kimi AR Konstitusiyası AR-in bütün ərazisində ali hüquqi qüvvəyə malikdir. Bütün qanunlar və digər normativ hüquqi aktlar AR Konstitusiyası əsasında və ona uyğun olaraq qəbul edilir.

AR Konstitusiyası AR-in bütün ərazisində ali hüquqi qüvvəyə malik olduğundan onun normaları ilə məhkəmə icraatı qaydasını tənzimləyən digər aktların normaları arasında ziddiyyət olduqda, AR Konstitusiyasının normaları tətbiq edilir. Bu baxımdan MPM-nin 1.3-cü maddəsinə müvafiq olaraq mülki prosessual fəaliyyət sahəsində insan və vətəndaşın hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, habelə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmənin müstəqilliyini və tərəflərin çəkişmə prinsipini pozan, eləcə də sübutlara əvvəlcədən müəyyən olunmuş qüvvə verən qanunvericilik aktları qəbul edilə bilməz.

Məhkəmələr tərəfindən mülki işlər və iqtisadi mübahisələrin baxılması və araşdırılması qaydasını AR MPM-si tənzimləyir. Mülki-prosessual hüququn mənbəyi kimi MPM-in səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, o nəinki mülki məhkəmə icraatını, həmçinin iqtisadi və münsiflər məhkəməsinin mühakimə icraatını tənzimləyən normaları özündə əks etdirir. AR MPM-in 4-cü maddəsində nəzərdə tutulan bütün fiziki və hüquqi şəxslərin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququ AR-in mülki-prosessual qanunvericilik sisteminin mühüm tərkib elementi olmaqla ayrıca qanunvericilik aktı səviyyəsində də öz təsbitini tapmışdır. Belə ki, *Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və*

*hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında* 1999-cu il Qanunu AR Konstitusiyası və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit edilmiş AR vətəndaşlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi qaydalarını müəyyənləşdirir, habelə vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

MPM-nin 1.1-ci maddəsində Prezident fərmanları və Nazirlər Kabinetinin qərarları nəzərdə tutulmasa, mülki-prosessual hüquq münasibətlərinin tənzimlənməsində Prezidentin fərman və sərəncamları da xüsusi əhəmiyyət kəsb edir.

AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələri də mülki-prosessual hüququn ümumi mənbəyinə aid etmək olar. AR Konstitusiyasının 151-ci, AR MPM-in 1.5-ci maddəsinə müvafiq olaraq AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə prosessual qanunvericilikdən fərqli qaydalar müəyyən edilərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir. AR-in mülki-prosessual qanunvericilik sistemində beynəlxalq hüquq normalarının yeri məsələsində Avropa Məhkəməsi presedentlərinin hüquqi qüvvəsi, eyni zamanda AR Ali Məhkəməsinin müvafiq sferada qəbul etdiyi aktların hüquqi qüvvəsi məsələsi xüsusi əhəmiyyət kəsb edir. Məhkəmə presedentinin əlamətləri AR-in hüquq sistemində özünəməxsus xüsusiyyətlərə malikdir. Belə ki, AR-in MM-də (m.11) və MPM-də (m.13.5) hüququn analogiyasına icazə verilməsi, Kostitusiya Məhkəməsinin qərarının məcburi olmasının təsbit edilməsi (MPM, m.13.7), Ali Məhkəmə Plenimunun məhkəmə təcrübəsini ümumiləşdirən qərarlar qəbul etməsi və onun digər məhkəmələr tərəfindən tətbiq edilməsi, həmçinin İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi AR-in hüquq sistemində məhkəmə presedentlərinin özünəməxsusluğunu şərtləndirir.

Məlum olduğu kimi mülki-prosessual qanunvericilik sistemində prinsip özünəməxsus yerə malikdir. Hüququn prinsipləri ictimai həyatın obyektiv qanunauyğunluqlarını hüquqi cəhətdən təsbit edən əsas başlanğıc normalardır. Onlar özlərində hüququn daha xarakterik cəhətlərini ehtiva edir, onun hüquqi təbiətini müəyyən edir. Başqa sözlə desək, hüququn prinsipləri universallığı, ümumi əhəmiyyəti, ali imperativliyi ilə fərqlənən, hüquqi tənzimləmənin məzmununu müəyyənləşdirən və hüquqla tənzimlənən münasibət iştirakçılarının davranış və fəaliyyətinin hüquqa uyğunluğunun meyarı kimi çıxış edən ümummməcburi, ilkin normativ-hüquqi qaydalardır.

İkinci fəsil **“Beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyi sistemində yeri (maddi-hüquqi aspektlər)”** adlanır və üç yarımfəsildən ibarətdir.



**Birinci yarımfəsildə** mülki proses sferasında beynəlxalq və milli hüquq normalarının qarşılıqlı əlaqəsinin nəzəri problemləri tədqiq edilir. Burada beynəlxalq hüquq normalarının AR-in mülki-prosessual qanunvericiliyi sistemində yeri probleminin ilk növbədə, mülki proses sferasında beynəlxalq və milli hüquq normalarının qarşılıqlı əlaqəsi kontekstində araşdırılmasının məqsədəuyğun olması qeyd olunur. Bu problemlə bağlı hüquq ədəbiyyatında mövcud olan çoxsaylı yanaşmalar müqayisəli təhlil olunur. İnsan hüquqlarının inkişafının vahid hüquq sisteminin tərkib elementləri kimi beynəlxalq və milli hüquqa yeni yanaşmanı formalaşdırması fikrinin mülki proses sferası üçün də səciyyəvi olması vurğulanır. Yeni yanaşmanın mahiyyəti isə beynəlxalq və milli hüququn qarşılıqlı fəaliyyətinin, o cümlədən məqsəd və vəzifələr dairəsinin genişlənməsindən, bu istiqamətdə beynəlxalq əməkdaşlığın sürətli inkişafından və s. ibarətdir.

Mülki proses sferasında beynəlxalq hüquq və dövlətdaxili hüququn münasibətləri, ictimai həyatın beynəlmiləlləşməsi şərtilə qarşılıqlı təsirlə müşayət olunur. Dövlətdaxili hüquq beynəlxalq hüquqa ikili təsir göstərir. *Birincisi,* maddi təsirdir, yəni milli hüquq normalarının məzmununun beynəlxalq-hüquqi normaların məzmununa təsir etməsidir. *İkincisi* prosessual təsirdir, yəni beynəlxalq hüquq normalarının yaradılması istiqamətində milli hüquq normalarının təsiridir (məsələn, beynəlxalq müqavilələrin bağlanması).

Eyni zamanda qarşılıqlı asılılıq və vahidlik milli siyasi-hüquqi sistemlərin vahid qlobal sistemin tərkib hissəsi kimi inkişafına şərait yaradır. Bu baxımdan beynəlxalq hüquq da öz növbəsində milli hüquqa maddi-hüquqi və prosessual-hüquqi təsir göstərir. Beynəlxalq hüquq normalarının milli hüquqa təsiri, həmin normaların milli-hüquqi implementasiyası (realizəsi) formasında baş verir.

Beynəlxalq hüquq normalarının implementasiyasının dövlətdaxili mexanizminin istənilən dövlətə məxsus əsas elementləri bunlardır: beynəlxalq hüququn realizəsi üçün istifadə edilən milli hüquqi vasitələr; beynəlxalq hüquqdan irəli gələn öhdəliklərin realizəsinə səlahiyyət verilmiş dövlət orqanlarının sistemi. AR-də beynəlxalq və milli hüququn əlaqəsi məsələsində implementasiyanın inkorporasiya mexanizmi qüvvədədir. AR qanunvericiliyinə münasibətdə inkorporasiya dedikdə, həm dövlətlərarası, həm də hökumətlərarası beynəlxalq müqavilələrin inkorporasiyası nəzərdə tutulur. Milli qanunvericiliyimizdə dövlətlərarası və hökumətlərarası müqavilələr arasında fərq qoyulur. Belə ki, Konstitusiyanın 148.2-ci maddəsində ümumi şəkildə “beynəlxalq müqavilə” ifadəsi işlədilsə də, 151-ci maddədə “dövlətlərarası müqavilə” ifadəsi təsbit edilmişdir. Konstitusiyanın 151-ci maddəsinin şərhindən belə nəticə çıxır ki, dövlətlərarası müqavilələrin milli qanunlar üzərində

primatlığı birbaşa təsbit olunur. Lakin milli qanunvericiliyimiz "hökumətlərarası müqavilələr" anlayışından da yan keçmir. Konstitusiyanın 130.3.6-cı və *Normativ-hüquqi aktlar haqqında* Konstitusiya Qanununun 23-cü maddəsindən belə qənaətə gəlmək olar ki, normativ iyerarxiyada hökumətlərarası müqavilələr Konstitusiya və qanunlardan aşağıda durur.

Konstitusiyanın 151-ci maddəsi eyni zamanda beynəlxalq müqavilə normaları ilə milli qanunvericilik arasındakı kolliziyanın həllinin hüquqi əsasını yaratmışdır. Hesab olunur ki, beynəlxalq müqavilə və milli qanun arasındakı kolliziya *lex posteriori derogat legi priori* prinsipi əsasında həll olunmalıdır. Beynəlxalq müqavilə həm AR üçün qüvvəyə minməzdən qabaq, həm də ondan sonra qəbul olunmuş istənilən normativ-hüquqi aktlara münasibətdə üstünlüyə malikdir.

**İkinci yarımfəsil** beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının AR-in mülki-prosessual qanunvericiliyinin hüquqi əsası qismində çıxış edə bilməsi probleminə həsr olunur. Problemlə bağlı müxtəlif dövlətlərin qanunvericilik təcrübəsi müqayisəli analiz edilir, hüquq ədəbiyyatındakı yanaşmalar təhlil olunur. Qeyd olunur ki, AR qanunvericiliyində beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının primatlığı birbaşa təsbit edilməsə də, AR Konstitusiyasının 10-cu maddəsi beynəlxalq münasibətlərin prinsiplərini müəyyən edir. Belə ki, həmin maddəyə əsasən, AR-in başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Milli qanunvericiliyin ümumqəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslanmasını nəzərdə tutan AR-in Cinayət Məcəlləsindən (m.1.2) və İnzibati Xətalar Məcəlləsindən (m.1.2) fərqli olaraq, mülki-prosessual qanunvericiliyində belə müddəa nəzərdə tutulmur. AR-in başqa dövlətlərlə münasibətlərinin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmasını təsbit edən Konstitusiyanın 10-cu maddəsini genişləndirici şəkildə təfsir etsək, o halda "beynəlxalq münasibətlər" anlayışının dövlətlərarası xarakter daşımayan beynəlxalq münasibətlərə, *o cümlədən beynəlxalq mülki-prosessual münasibətlərə* də aid etmək olar

Bununla belə, milli qanunvericiliyimizdə beynəlxalq adət normalarına istinad edilməsi ilə bağlı müddəalara da rast gəlinir. Belə ki, *Beynəlxalq xüsusi hüquq haqqında* AR Qanununun 1.2-ci maddəsində qeyd edilir ki, xarici elementli mülki hüquqi münasibətlərə tətbiq olunmalı hüquq bu Qanunla bərabər, həm də digər müvafiq qanunvericilik aktları, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ümumi qəbul olunmuş beynəlxalq adətlər əsasında müəyyən edilir.



"Ümumtanınmış", "hamılıqla qəbul edilmiş" kimi ifadələrinin vahid anlayışının olmaması həm nəzəriyyədə, həm də praktikada müəyyən problemlər yaradır. *Beynəlxalq xüsusi hüquq haqqında* Qanunda *"AR-in tanıdığı"* deyil, *"ümumi qəbul olunmuş beynəlxalq adətlər"* ifadəsindən istifadə edilməsi diqqətəlayiqdir. Qeyd etmək lazımdır ki, ilk növbədə beynəlxalq hüququn əsas prinsiplərinə əsaslanan adət hüquq normaları ümumi qəbul olunmuş imperativ davranış qaydası kimi hesab olunur. Belə normalara dövlət, razılığını bildirməsindən asılı olmayaraq riayət etməlidir.

Ümumi qəbul olunmuş adətlər əksər dövlətlər tərəfindən tanınan adətlərdir. Respublikamızda beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının realizəsi yolunda bəzi problemlər var: 1) "ümumtanınmış" termini açıqlanmalı, onun hüquqi əsasları və tətbiqi müəyyən olunmalıdır; 2) beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının mənbələri müəyyən olunmalıdır, həmin normaların AR Konstitusiyası ilə nisbəti, kolliziya hallarında hansının tətbiqi müəyyənləşdirilməlidir.

Beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları məsələsində vacib məqamlardan biri də odur ki, bu məsələdə prinsip və normaları ayırmağa ehtiyac yoxdur. Beynəlxalq hüququn ümumtanınmış prinsipləri mahiyyət etibarilə onun normalarıdır. Onlar ən ümumi və bütün beynəlxalq hüquq sisteminin əsas qaydalarıdır. Buradan beynəlxalq hüququn imperativ normalarının ayrılması *Beynəlxalq müqavilələr hüququ haqqında* 1969-cu il Vyana Konvensiyasının 53-cü maddəsinə əsaslanmalıdır.

Beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin birbaşa qüvvəsi onun ümumi xarakteri ilə bağlıdır. Onlar özüicraolunan normalar deyil və beynəlxalq hüququn inkişafının və fəaliyyətinin ideya əsasına xidmət edir. Ümumtanınmış prinsiplər, rəhbər başlanğıclar olmaqla özündə daha ümumi normaları təcəssüm etdirir, bunun səbəbi odur ki, həmin normalar beynəlxalq-hüquqi tənzimetmənin bütün sistemini əhatə edə bilsin.

Beynəlxalq hüququn mülki proseslə bağlı ümumtanınmış prinsiplərinə gəldikdə isə aşağıdakı prinsipləri qeyd etmək olar: insan hüquqlarına hörmət olunması və qorunması; məhkəməyə müraciət etmək; qanun və məhkəmə qarşısında bərabərlik; ədalətli məhkəmə araşdırması; hakimlərin müstəqilliyi; beynəlxalq öhdəliklərin vicdanla icrası; ağlabatan müddət; şəxsi həyatın toxunulmazlığı və s.

**Üçüncü yarımfəsildə** mülki proses sferasında beynəlxalq müqavilə normaları və onların AR-in mülki-prosessual qanunvericiliyinə təsiri məsələləri təhlil edilir. Qeyd olunur ki, beynəlxalq mülki dövriyyə iştirakçılarının hüquqlarının müdafiəsində beynəlxalq müqavilənin rolu mütəmadi olaraq artmaqdadır. Bunu iki amillə izah etmək olar: 1) insan hüquq və azadlıqla-

rının fundamental əhəmiyyətinin tanınması və onların beynəlxalq-hüquqi qaydada təsbit edilməsi zərurətinin olması ilə; 2) müxtəlif səviyyələrdə beynəlxalq iqtisadi əməkdaşlığın genişlənməsi ilə. AR-in MPM-nə görə (m.1.1), AR-in məhkəmələrində mülki və iqtisadi mübahisələr üzrə icraatın qaydası Konstitusiya, bu Məcəllə, *Məhkəmələr və hakimlər haqqında* Qanun və digər qanunlar, habelə AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir. AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə prosessual qanunvericilikdən fərqli qaydalar müəyyən edilərsə, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir (m.1.5). Həmçinin, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə AR-in mülki-prosessual qanunvericiliyinin məkana görə tətbiqinin digər qaydaları müəyyən oluna bilər (m.3.4.).

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bağlanmış müqavilələrdə dövlətlərin üzərinə götürdüyü öhdəliklər iştirakçı-dövlətlərə deyil, onların yurisdiksiyası altında olan insanlara ünvanlanmaqla, ayrı-ayrı fərdlərin hüquqlarının müdafiəsinə yönəlmiş olur. AR-də *pacta sunt servanda* (müqavilələr icra olunmalıdır) prinsipinə müvafiq olaraq, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi prosesi davam etməkdədir. İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə görülən tədbirlərin bir hissəsi də məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi, məhkəmə sisteminin müasirləşdirilməsidir.

Beynəlxalq müqavilə beynəlxalq hüququn əsas subyekti olan dövlətlər arasında bağlanan və qarşılıqlı hüquq və vəzifələrin müəyyən edilməsi yolu ilə həmin dövlətlər arasında münasibətlərin tənzimlənməsinə yönələn sazişdir. Beynəlxalq müqavilə beynəlxalq hüququn əsas mənbəyidir, dövlətin xarici siyasətinin həyata keçirilməsinin vacib alətidir.

Mülki-prosessual məsələlər üzrə beynəlxalq müqavilələr xüsusi əhəmiyyət kəsb edir. Həmin müqavilələr mülki hüquqların müdafiəsi məqsədilə müxtəlif ölkələrin dövlət strukturlarının qarşılıqlı fəaliyyətinin təşkilinə yönəlmişdir. Hazırda mülki prosesin tənzimlənməsi üzrə beynəlxalq sazişlərin xüsusi çəkisi artmışdır. Bu, ilk növbədə, insan hüquq və azadlıqlarının əhəmiyyətinin artması, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, müxtəlif səviyyələrdə beynəlxalq əlaqələrin genişlənməsi ilə bağlıdır. Mülki-prosessual münasibətləri tənzimləyən beynəlxalq müqavilə və sazişlərin çoxluğunu nəzərə alaraq, onları şərti olaraq üç qrupa ayırmaq olar: 1) xüsusi (konkret) mülki-prosessual müqavilələr; 2) universal müqavilələr və 3) regional müqavilələr.

Universal və regional müqavilələr həm maddi, həm də prosessual hüququn məsələlərinin nizamlanmasına yönəlmişdir. Mülki-proseslə bağlı məsələləri tənzimləyən xüsusi müqavilələrə aşağıdakılar aiddir: *Mülki*



*proses məsələləri üzrə* Konvensiya (1954); *Ölkə sərhədlərindən kənarda mülki və ticarət işləri üzrə məhkəmə və məhkəmədən kənar sənədlərin təqdim edilməsi haqqında* Konvensiya (1965); *Ölkə sərhədlərindən kənarda mülki və ticarət işləri üzrə sübutların alınması haqqında* Konvensiya (1970); *Xarici rəsmi sənədlərin leqallaşdırılması tələblərini ləğv edən* Konvensiya (1961); *Ədalət mühakiməsinə beynəlxalq çıxış haqqında* Konvensiya (1980).

Universal müqavilələrə aşağıdakıları aid etmək olar: *Dövlətlər və digər dövlətlərin fiziki və ya hüquqi şəxslər arasında investisiya mübahisələrinin tənzimlənməsi haqqında* Vaşinqton Konvensiyası (1965); *Diplomatik əlaqələr haqqında* Vyana Konvensiyası (1961); *Konsul əlaqələri haqqında* Vyana Konvensiyası (1961); *Dəniz hüququ üzrə* BMT Konvensiyası (1982).

Regional müqavilələrə aşağıdakıları aid etmək olar: *Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında* Minsk Konvensiyası (1993); *Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında* Kişinyov Konvensiyası (2002); *Təsərrüfat fəaliyyətinin həyata keçirilməsi ilə bağlı mübahisələrin həlli qaydası haqqında* Kiyev Sazişi (1992); *Xarici ticarət arbitrajı haqqında* Cenevrə Konvensiyası (1961); *Mülki və ticarət mübahisələrinə münasibətdə məhkəmə qərarlarının məcburi icrası və yurisdiksiya məsələlərinə dair* Brüssel Konvensiyası (1968); *Dövlət immuniteti haqqında* Avropa Konvensiyası (1972); *Mülki və ticarət mübahisələrinə münasibətdə məhkəmə qərarlarının məcburi icrası və yurisdiksiya məsələlərinə dair* Luqano Konvensiyası (1988); *Bustamante Məcəlləsi* (1928);

Üçüncü fəsil **"Mülki proses sferasında beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının hüquq sistemində realizəsinin prosessual-hüquqi aspektləri"** adlanır və dörd yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** mülki proses sferasında beynəlxalq hüquq normalarının AR hüquq sistemində tətbiqi problemi araşdırılır. Beynəlxalq hüquq normalarının tətbiqi ilə bağlı hüquq ədəbiyyatında mövcud olan mövqelər müqayisəli təhlil edilir. Qeyd olunur ki, beynəlxalq hüquq normalarının həqiqi potensialı onların həyata keçirilməsi zamanı üzə çıxır. Beynəlxalq hüquq normalarının səmərəliliyi realizənin keyfiyyəti və səviyyəsindən asılıdır. İstənilən hüquq norması, əgər o icra edilmirsə, deməli effekt də vermir. Prosessual baxımdan beynəlxalq hüquq normalarının milli hüquq sistemində realizəsi bir qayda olaraq tətbiq formasında baş verir. Tətbiq, tənzimetmə predmetinə və ümumi məqsədlərinə görə qarşılıqlı əlaqəli olan normaların müəyyən məcmusunun həyata keçirilməsidir.

Mülki prosesə dair beynəlxalq hüquq normalarının tətbiqi müəyyən kolliziyaların həll edilməsi zərurəti ilə müşayət olunur. Bu ilk növbədə beynəlxalq hüquq normaları ilə dövlətdaxili qanunvericilik arasında yarana biləcək ziddiyyətlə bağlıdır. Məsələnin həllində təbii ki, hüquq tətbiq edən orqanlar, ilk növbədə məhkəmələr AR Konstitusiyasında və digər normativ aktlarda (MPM, m.1.5 və 13.3, *Məhkəmələr və hakimlər haqqında* Qanun, m.2) təsbit olunan beynəlxalq hüququn primatlığı prinsipinə əsaslanmalıdır. Hərçənd, bu prinsip qanunvericiliyə uyğun olaraq tətbiq təcrübəsində də beynəlxalq hüquq (əsasən də müqavilə) normaları ilə dövlətdaxili qanunvericilik arasında ziddiyyət yaranması halında beynəlxalq müqavilə normalarının tətbiq edilməsi kimi qəbul olunur. Hesab edilir ki, bu, ən azından beynəlxalq mülki proseslə bağlı məsələlərin həllində yolverilməzdir. Belə ki, bu məsələlərin səmərəli həlli üçün, məsələn, AR məhkəmələrinin beynəlxalq səlahiyyətinin müəyyən edilməsində beynəlxalq müqavilə normaları ziddiyyətin olmasından asılı olmayaraq tətbiq edilməlidir.

Adətən beynəlxalq hüquq normaları dövlətdaxili hüququn köməyi ilə realizə olunur. Buna müvafiq məhkəmələr bir qayda olaraq milli hüquqa inkorporasiya olunmuş normaları tətbiq edir. Belə tətbiq milli hüququn göstərişləri əsasında həyata keçirilir. Bu təbiidir, çünki, milli hüquq, onun normaları bilavasitə tətbiq üçün daha çox uyğundur. Mülki-prosessual hüquq ümumi hüquq sisteminə aid edildiyindən təcrübədə bu tətbiqə üstünlük verilir. Lakin mülki prosesin xüsusi hüquqların müdafiəsi forması kimi çıxış etməsini nəzərə alaraq demək olar ki, xüsusi münasibətlər sferası üçün xarakterik olan beynəlxalq hüquq normalarının birbaşa, yəni (tətbiq üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə) tətbiq edilməsi istisna edilmir. Bir qayda olaraq məhkəmələr özüicraolunan normaları bilavasitə tətbiq edirlər. Bundan başqa, beynəlxalq müqavilə normaları, AR-in mülki-prosessual qanunvericiliyinin məkana görə hədlərini fərqli müəyyən ediyi hallarda (MPM, m.3.4) da birbaşa tətbiq edilir.

Məhkəmələr beynəlxalq normaların tətbiqi zamanı, onların müqavilə və ya adət norması olmasını nəzərə almalıdır. Məhkəmələr konkret şərtlərlə beynəlxalq hüquq normalarını tətbiq etməklə, həmin normaları təfsir edir, dəqiqləşdirir, hətta məzmununu zənginləşdirir. Bu səbəbdən məhkəmə qərarları yaradıcı xarakter daşıyır. Xüsusilə də, beynəlxalq müqavilənin özündə kifayət qədər aydınlıq olmadıqda, məsələn, onun tətbiqi ilə bağlı, bu zaman məhkəmələrin həmin müqavilənin realizəsi üzrə fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq müqavilə normalarını tətbiq edərkən, məhkəmələr müəyyən çətinliklərlə qarşılaşa bilər. İlk növbədə, təfsir yolu



ilə müqavilə normaları arasındakı ziddiyyətlər aradan qaldırılmalı, normanın məzmunu razılaşdırılmalıdır. Əgər bu mümkün olmadıqda, ümumqəbul olunmuş qaydalara əməl edilməlidir. Belə qaydalardan biri odur ki, adət norması ilə müqavilə norması arasında ziddiyyət yaranarsa, əgər söhbət imperativ normadan getmirsə, ümumi qaydadan istisna kimi müqavilə norması tətbiq olunur. *Beynəlxalq müqavilələr hüququ haqqında* 1969-cü il Vyana Konvensiyasına müvafiq olaraq məhkəmə təfsiri prosesində aşağıdakı tələblər: 1) müqavilənin obyekti və məqsədləri ilə bağlı məsələlərə riayət olunması; 2) müqavilənin terminlərin adi anlamda başa düşülməsi; 3) sonrakı müqavilənin tətbiqi üzrə beynəlxalq praktika müqavilənin ayrıca normalarının tətbiqi zamanı nəzərə alınmalıdır.

**İkinci yarımfəsildə** mülki proses sferasında beynəlxalq hüquq normalarının realizə forması kimi qəbul olunan hüquqi yardım problemi tədqiq edilir. Hüquqi yadımla bağlı mövcud olan beynəlxalq müqavilələrin və AR-in mülki-prosessual qanunvericiliyinin müqayisəli təhlili aparılır. Qeyd olunur ki, müasir beynəlxalq münasibətlərdə hüquqi yardım, bir qayda olaraq, müraciət edən dövlətin qanunvericiliyi ilə nəzərdə tutulmuş müxtəlif prosessual hərəkətlərin həyata keçirilməsini nəzərdə tutur. Həmin hərəkətlərə ailə-nikah və ticarət işləri üzrə mülki prosesin həyata keçirilməsi üçün sənədləri tərtib etmə, göndərmə, sənədlərin verilməsi, maddi sübutların alınması, şahidlərin, ekspertlərin və başqa şəxslərin dindirilməsi və s. daxildir. Hüquqi yardım anlayışına daxil olan prosessual hərəkətlərin əksəriyyəti məhkəmənin fəaliyyəti ilə bağlıdır. Həmin prosessual hərəkətlər məhkəmə tapşırığı formasında icra olunur. Müasir beynəlxalq praktikada məhkəmə tapşırıqları və hüquqi yardımın digər növləri əksər hallarda beynəlxalq müqavilələr əsasında həyata keçirilir. Belə müqavilələr həm çoxtərəfli, həm də ikitərəfli əsasda bağlanır.

Beynəlxalq müqavilələr üzrə hüquqi yardım əsasən aşağıdakı məsələləri əhatə edir: xarici şəxslərin yazılı müraciətlərinə baxılması və həlli; vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı üzrə sənədlərin tərtib edilməsi və göndərilməsi; notarius və digər səlahiyyətli orqanlardan vətəndaşların müraciəti əsasında sənədlərin verilməsi; axtarış, götürmə, ekspertiza, tərəflərin, üçüncü şəxslərin, şahidlərin və ekspertlərin dindirilməsi üzrə məhkəmə tapşırıqlarının icrası; sənədlərin təqdim edilməsi üzrə məhkəmə tapşırıqlarının icrası; maddi sübutların təqdim edilməsi; axtarış tədbirlərinin həyata keçirilməsi; notarius sorğusu üzrə vərəsəlik işləri barədə sənədlərdən surətlərin təqdim edilməsi; maraqlı şəxslərin ərizəsi əsasında mülki işlər üzrə məhkəmə qərarlarının tanınması və icrası; informasiya mübadiləsi.

Mülki işlər üzrə hüquqi yardımın göstərilməsi AR MPM-in müvafiq maddələri ilə tənzimlənir. AR məhkəmələri AR qanunları ilə və AR-in tə-

rəfdar çıxdığı beynəlxalq müqavilələri ilə müəyyən edilmiş qaydada xarici məhkəmələrin ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi barədə tapşırıqlarını (bildirişlərin və başqa sənədlərin verilməsi, tərəflərdən izahatlar, şahidlərdən ifadələr, ekspertlərdən rəy alınması, yerində müayinə aparılması və s.) icra edirlər. Aşağıdakı hallarda tapşırıqlar icra edilməməlidir: əgər tapşırığın yerinə yetirilməsi AR-in suverenliyinə və onun qanunvericiliyinin ümumi prinsiplərinə (*ordre public*) ziddirsə; əgər tapşırığın yerinə yetirilməsi məhkəmənin səlahiyyətinə aid deyildirsə.

Hüquqi yardım göstərilməsi və insan hüquqlarının müdafiəsi bir-biri ilə əlaqəlidir. Daha dəqiq desək, mülki prosesdə hüquqi yardımın əsas məqsədi insan hüquq və azadlıqlarının müdafiəsinə təminat verməkdir. AR-in Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirərək onlara hörməti, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının mühüm vəzifəsi kimi müəyyən etmişdir.

**Üçüncü yarımfəsildə** mülki proses sferasında beynəlxalq hüquq normalarının realizəsinin hüquqi nəticəsi kimi xarici məhkəmə qərarlarının AR-də tanınması və icrası problemi tədqiq edilir. Problemlə bağlı hüquq ədəbiyyatındakı fikir müxtəlifliyi analiz edilir, mövcud olan beynəlxalq müqavilələr və AR qanunvericiliyi müqayisəli təhlil olunur. Qeyd edilir ki, bir dövlətin ərazisində digər dövlətin məhkəmə qərarının tanınması, həmin qərarlara müvafiq dövlətin ərazisində qanuni qüvvəyə minmiş məhkəmə qərarının malik olduğu hüquqi qüvvənin verilməsi anlamına gəlir. Xarici məhkəmə qərarlarının tanınmasının hüquqi nəticəsi ondan ibarətdir ki, həmin qərarlar yerli məhkəmə qərarlarının malik olduğu hüquqi status əldə edir. Həmin qərarlar məhz tanındıqdan sonra məcburi icra edilirlər (*İcra haqqında* Qanun, m.77.2.). Deməli, həmin dövlətin ərazisində yaşayan fiziki şəxslər və fəaliyyət göstərən hüquqi şəxslər üçün məcburi hüquqi qüvvəyə malik olur.

Xarici məhkəmə qərarının tanınması və icrasının mümkünlüyü konkret dövlətin qanunvericiliyi və bu dövlətin iştirak etdiyi beynəlxalq müqavilələrə əsasən müəyyən edilir. AR MPM-in 458-ci maddəsinə əsasən, xarici məhkəmələrin qərarları AR qanunlarında və ya AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu halda, yaxud qarşılıqlı anlaşma əsasında tanınır və icra edilir. Hərçənd, bu maddədə təsbit olunan "qarşılıqlı anlaşma əsasında" ifadəsinin ikitərəfli müqavilələri, yaxud qarşılıqlıq prinsipini nəzərdə tutması qeyri-məlumdur. Fikrimizcə, bu ifadə əslində qarşılıqlıq prinsipi kimi təfsir edilməlidir. Çünki, hüquqi əsas kimi beynəlxalq müqavilənin fərqli ifadələrlə verilməsi qeyri-mətiqidir.

AR MPM-in 463-cü maddəsinə əsasən, xarici məhkəmə qərarları dedikdə, mülki və iqtisadi mübahisələr üzrə qərarlar, cinayət işləri üzrə hökmlərin cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi barədə hissələri, arbitraj məhkəmələrinin qətnamələri, habelə xarici dövlətlərin digər aktları başa düşülür. Digər aktlara notariatların, qəyyumluq və himayəçilik, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanlarının və digər səlahiyyətli orqanların aktları daxildir. "Məhkəmə qərarı" termini məhkəmənin hər hansı qərarını, qətnaməsini və qərardadını, o cümlədən iddianın təmin edilməsi ilə bağlı qərarlarını və barışıq sazişini ifadə edir.

Bəzən tanınma xarici məhkəmə qərarının çıxarıldığı dövlətdə hüquqi qüvvə alması kimi, bəzən də onun milli məhkəmə qərarı ilə bərabərləşdirilməsi kimi izah edilir. Tanınmanın xarici məhkəmə qərarının çıxarıldığı dövlətdəki hüquqi qüvvə alması kimi qəbul edilməsi mübahisəlidir. Çünki qərarın xarici dövlətdəki hüquqi qüvvəsi qərarın icra olunduğu dövlətin hüququnun mahiyyətinə zidd ola bilər. Buna görə də, məhkəmə praktikası tanınma ilə xarici məhkəmə qərarının icra olunduğu dövlətin məhkəmə qərarına hüquqi cəhətdən bərabərləşdirilməsinə üstünlük verir.

Xarici məhkəmə qərarının tanınması onun məcburi icrası anlayışı ilə eynilik təşkil etmir. Tanınma xarici məhkəmə qərarına, dövlət orqanları tərəfindən məcburi icra olunma imkanı istisna olmaqla, daxili qətnamə qüvvəsinin verilməsidir. Belə ki, nikahın pozulması və ya etibarsız hesab olunması barədə qətnamənin məcburi icraya ehtiyacı yoxdur. Ümumi qaydaya görə, qərarın tanınması onun məcburi icrasının ilkin şərtidir.

Xarici məhkəmə qərarlarının tanınması və icrası xarici şəxslərin iştirakı ilə ticarət və mülki mübahisələr üzrə məhkəmə prosedurunun əhəmiyyətli dərəcədə sadələşdirilməsinə, məsələn, borclunun icraya yönəldilməli olan əmlakının olduğu yerdə yeni prosesin aparılmasını aradan qaldırmağa köməklik göstərir. Xarici məhkəmə qərarının tanınması və icrası ölkə daxilində onun icrası üçün ikinci məhkəmə baxışını aradan qaldırmaqla tərəflər üçün həm vaxt, həm də vəsait itkisinə qənaət edir. Xarici məhkəmə qərarının tanınması və icrası cavabdehin öz vəzifələrinin icrasından yayınmasının qarşısını alır.

AR MPM-in 462-ci maddəsinə əsasən xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qətnamələri AR qanunvericiliyinə, hüquq qaydasına zidd deyildirsə və qarşılıqlı təminatlandırılmışdırsa, AR-də icra edilə və tanına bilər. Beynəlxalq müqavilələrdə xarici məhkəmə və arbitraj qərarlarının tanınması və icrasının müxtəlif mexanizmləri nəzərdə tutula bilər. Bununla əlaqədar olaraq, AR-in tərəfdar çıxdığı və ikitərəfli qaydada bağladığı hansı müqavilənin tətbiq edilməli olduğu müəyyən edilməlidir. Əgər AR və qətnamə çıxaran dövlət həm çoxtərəfli müqavilənin iştirakçısıdırsa, həm də aralarında ikitərəfli müqavilə varsa, bu zaman ikitərəfli müqavilə rəhbər tutulur.

**Dördüncü yarımfəsildə** beynəlxalq mülki-prosessual hüquq normalarının realizəsində beynəlxalq və milli məhkəmə prosedurlarının qarşılıqlı əlaqəsinin yeri məsələsi tədqiq edilir. Qeyd olunur ki, beynəlxalq mülki-prosessual hüququn fəaliyyət sferasına yalnız milli mülki proseslərin deyil, həmçinin mülki mübahisələrə baxılması üzrə beynəlxalq və dövlətdaxili prosedurların qarşılıqlı əlaqəsindən irəli gələn məsələlər də daxildir. Dövlətdaxili və beynəlxalq prosedurların nisbi müstəqil olması və bir qayda olaraq dövlətdaxili müdafiə vasitələrinin tükənməsi ilə şərtlənən qarşılıqlı fəaliyyət müəyyən xüsusiyyətlərə malikdir. *Birincisi,* xüsusi hüquqların müdafiəsi ilkin olaraq dövlətdaxili vasitələrlə, başlıcası dövlət məhkəmələri tərəfindən həyata keçirilir. Daxili vasitələr hüquqların müdafiəsini təmin etmədikdə beynəlxalq mexanizmlərin fəaliyyəti başlayır. *İkincisi,* beynəlxalq mexanizmlərin fəaliyyəti beynəlxalq müqavilələrə əsaslanır. Bu baxımdan müxtəlif mexanizmlərin fəaliyyət qaydası bir-birindən fərqli ola bilər. Ona görə də hər bir beynəlxalq mexanizmin xüsusi hüquqların müdafiəsi sistemində tutduğu yeri və dövlətdaxili mexanizmlərlə münasibətləri fərdi olaraq müəyyən edilir.

AR MPM-in 16-cı maddəsinə əsasən, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq tərəflər, habelə işdə iştirak edən digər şəxslər, bu Məcəllədə nəzərdə tutulan hüquqi müdafiə vasitələri bitərsə, insan hüquq və azadlıqlarının müdafiəsi üçün beynəlxalq məhkəmələrə müraciət edə bilərlər. Maddədə təsbit olunan "beynəlxalq məhkəmələr" anlayışı mülki hüquqların müdafiəsinin beynəlxalq müqavilələr əsasında yaradılan beynəlxalq mexanizmlərini ehtiva edir. Buraya Avropa Məhkəməsini, Avropa İttifaqı Məhkəməsini, MDB İqtisad Məhkəməsini və s. aid etmək olar. Həmin maddədəki "AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq" ifadəsi bunu deməyə əsas verir, çünki həmin mexanizmlərin fəaliyyəti məhz bu müqavilələrlə müəyyən edilir. Bu baxımdan, AR MPM-in 15.5.-ci maddəsindəki "*xarici dövlətlərin, beynəlxalq məhkəmələrin və iqtisad məhkəmələrinin aktlarının məcburiliyi*" və *İcra haqqında* Qanununun 6.1. və 13.1.4-ci maddələrindəki "*xarici dövlətlərin məhkəmələrinin və beynəlxalq arbitrajların qərarlari*" ifadələri eyni mənada təfsir edilməlidir. Digər tərəfdən, AR qanunvericiliyi dövlətdaxili hüquqi müdafiə vasitələrinin bitməsinin zərurilyini müəyyən edir.

Beynəlxalq və milli prosedurların qarşılıqlı fəaliyyətində əhəmiyyətli olan məsələ beynəlxalq məhkəmələrin qərarlarının tanınması və icrasıdır. Beynəlxalq məhkəmə qərarının tanınması və icrasının mümkünlüyü konkret dövlətin qanunvericiliyi (MPM, m.15.5) və bu dövlətin iştirak etdiyi beynəlxalq müqavilələrə əsasən müəyyən edilir. Hərçənd, MPM-nin 47-50-



fəsillərində ansaq xarici dövlətlərin məhkəmə qərarlarının icrasından bəhs edilir. Bir dövlətin ərazisində beynəlxalq məhkəmə qərarının tanınması həmin qərarlara müvafiq dövlətin ərazisində qanuni qüvvəyə minmiş məhkəmə qərarının malik olduğu hüquqi qüvvənin verilməsi anlamına gəlir. Əslində, qərar məcburi olsa da, milli məhkəmənin əvvəl çıxarılmış qərarını birbaşa ləğv etmir. Digər tərəfdən, beynəlxlaq məhkəmələrin, xüsusilə Avropa Məhkəməsinin qərarlarının məcburiliyinin tanınması, bu qərarların presedent kimi tanınmasını və dövlətlərin beynəlxalq öhdəliklərinin təmin edilməsi üzrə müxtəlif formalarda implementasiya tədbirləri görməsini əhatə edir. Təcrübəyə əsaslanaraq qeyd edə bilərik ki, hazırda AR-in hüquq sistemində beynəlxalq məhkəmələrin, bir qayda olaraq Avropa Məhkəməsi qərarlarının icrası ilə bağlı müəyyən problemlər var. *Birincisi,* AR qanunvericiliyində heç bir normativ-hüquqi aktda birbaşa şəkildə Avropa Məhkəməsi qərarlarının yeri, öhdəlik səviyyəsi, məcburi hüquqi qüvvəsi təsbit edilməmişdir. *İkincisi,* qanunvericilikdə Azərbaycana münasibətdə çıxarılan və Azərbaycanın iştirakçısı olmadığı məhkəmə qərarlarının tətbiqi və hüquqi qüvvəsi ilə bağlı konkret norma yoxdur. *Üçüncüsü,* Avropa Məhkəməsi qərarlarının dövlətdaxili hüquq normaları ilə müqayisədə hüquqi qüvvəsi məsələsi qanunvericilik qaydasında həll olunmur. *Dördüncüsü,* AR qanunvericiliyi məhkəmə presedentini rəsmi olaraq hüququn mənbəyi qismində tanınması məsələsinə münasibət bildirmir.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Beynəlxalq hüquq normaları Azərbaycan Respublikası mülki-prosessual qanunvericiliyinin tərkib hissəsi kimi. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2012, №2(30), s. 52-59.
2. Mülki prosesdə təminat tədbirləri və beynəlxalq hüquq normaları. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013, №1(33), s. 45-52.
3. Beynəlxalq mülki-prosessual normaların Azərbaycan Respublikasında implementasiyasının nəzəri məsələləri. 10 dekabr Beynəlxalq insan hüquqları gününə həsr edilmiş Beynəlxalq-elmi praktik konfransın (13-14 dekabr 2012-ci il) materialları. II cild. Bakı, Bakı Universiteti nəşriyyatı, 2013, s. 718-719.
4. Beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyinin hüquqi

əsası kimi. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013, №3 (35), s. 64-70.

5. Tövsiyə xarakterli beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyi. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013, №4 (36), s. 66-72.

6. Mülki proseslə bağlı beynəlxalq hüquq normalarının sistemi və hüquqi təbiəti. Nəqliyyat hüququ, 2014, №4, s. 206-218.

7. Mülki proses sferasında beynəlxalq hüquq normalarının Azərbaycan Respublikası məhkəmələri tərəfindən tətbiqinin xüsusiyyətləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2014, №4 (40), s. 54-61.

8. Mülki prosessual hüququn bir sıra aktual problemləri. Nəqliyyat hüququ, 2015, №1, s. 198-208.

9. Правовая помощь в сфере гражданского процесса как форма реализации норм международного права. Правова держава, Вип. 26. Киев, 2015, с. 563-574.

10. Mülki proses Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyinin və beynəlxalq hüquq normalarının birgə tənzimetmə sistemində. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2015, s. 185-189.



## РЕЗЮМЕ

Представленная Халигом Рамиз оглы Годжаевым диссертация на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 – «Международное право; права человека» на тему «Имплементация международно-правовых норм в сфере гражданско-процессуального законодательства Азербайджанской Республики» является самостоятельным, творческим и завершенным исследованием и, отражая совершенно новые научные положения, имеет большое значение при анализе вопросов места и роли норм международного права в сфере гражданско-процессуального законодательства Азербайджанской Республики, в том числе проблем взаимосвязи международных и внутригосударственных (национальных) правовых норм в этом направлении. Диссертационная работа сформировалась на основе сравнительного анализа обширной международной договорной практики, законодательств различных государства, включая Азербайджанскую Республику и существующих разногласий в юридической литературе. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы исследования, указывается степень разработанности, научная новизна темы исследования, приводятся новые положения, выносимые на защиту, цели и задачи, теоретическое и практическое значение исследования.

В состоящей из 3 параграфов I главе («Гражданский процесс как предмет совместного регулирования гражданско-процессуального законодательства Азербайджанской Республики и норм международного права») диссертации проанализированы такие важные актуальные вопросы, как понятие и содержание гражданского процесса в качестве предмета совместного регулирования гражданско-процессуального законодательства Азербайджанской Республики и норм международного права, понятие и правовая природа международного гражданско-процессуального права, как регулирующей гражданский процесс системы норм международного права, системы гражданско-процессуального законодательства Азербайджанской Республики.

II глава диссертации называется «Место международных правовых норм в гражданско-процессуальном законодательстве Азербайджанской Республики (материально-правовые аспекты)» и состоит из 3 параграфов. В этом параграфе проанализированы такие вопросы, как теоретические проблемы взаимосвязи норм международного и национального права в сфере гражданского процесса, основные особенности общепринятых принципов и норм международного права в качестве правовой основы гражданско-процессуального законодательства Азербайджанской Республики, международные договорные нормы в сфере гражданского процесса и их влияние на гражданско-процессуальное законодательство Азербайджанской Республики.

III глава диссертации – «Процессуально-правовые аспекты реализации норм международного права в сфере гражданского процесса в правовой системе Азербайджанской Республики» также состоит из 3 параграфов. В главе исследованы следующие вопросы: проблема применения норм международного права в сфере гражданского процесса в правовой системе Азербайджанской Республики, правовая помощь в сфере гражданского процесса как форма реализации норм международного права, а также основные особенности признания и исполнения в Азербайджанской Республике решений зарубежных судов, как правового итога реализации международно-правовых норм в сфере гражданского процесса, место взаимосвязи международных и национальных судебных процедур при реализации международных гражданско-процессуальных правовых норм.

В заключении представлены полученные в ходе исследования важнейшие выводы и предложения, в том числе, раскрыто их теоретико-практическое значение для международной и внутригосударственной нормативной правовой системы.

## SUMMARY

Khalig Ramiz Gojayev`s dissertation work presented for attaining the degree of PhD in the specialisation "5603.01- International law; human rights" called "Implementation of international law norms in the field of civil-procedural legislation of the Republic of Azerbaijan" is independent, creative and completed work. The dissertation work is important with the view of place and role of international law norms in the field of civil-procedural legislation of Azerbaijan as well as problems concerning mutual link between international and domestic (national) law norms. The dissertation work is formed on the basis of comparative analysis of diverse points of views existing in the legal literatures, on legislation of different countries including Azerbaijan, and on international treaties` experience regarding human rights. Dissertation contains introduction, three chapters, conclusion and bibliography.

Topicality is substantiated in the introduction, the theoretical and practical importance of research, aims and goals, development rate, new approaches to the topic and novelty of the research work have been considered in the introduction.

The first chapter is called "Civil process as the subject-matter of joint regulation of civil-procedural legislation of Azerbaijan Republic and international law norms" and comprises 3 paragraphs. The significant actual matters concerning concept and content of civil process as the subject-matter of joint regulation of civil-procedural legislation of Azerbaijan Republic and international law norms, notion and legal nature of international civil-procedural law as system of international law norms regulating civil process as well as system of civil-procedural legislation of Azerbaijan Republic are analyzed in this chapter.

The second chapter of the dissertation work is called "The place of international law norms at the system of civil-procedural legislation of Azerbaijan Republic" and contains 3 paragraphs. This chapter is focused on theoretical problems of mutual link between international and domestic law norms in the field of civil process, main pecularities of general principles and norms of international law as the legal basis of Azerbaijan Republic`s civil-procedural law, norms of international treaties in the field of civil process and their impact to the civil-procedural legislation of Azerbaijan Republic.

The third chapter of dissertation work named "Procedural-legal aspects of international law norms` realization in the field of civil process at the law system of Azerbaijan Republic" embraces 3 paragraphs. Application of international law norms in the field of civil process at the law system of Azerbaijan Republic, the main features of realization forms of international law norms concerning legal assistance in civil process as well as recognition and execution of foreign court decisions in the Republic of Azerbaijan, the place of mutual link between international and domestic judicial procedures in realization of international civil procedural law norms are analyzed at the same chapter.

The conclusion part of the dissertation work is comprised of suggestions that are made and results that are achieved in the end of the dissertation work and especially dissertation work plays an important theoretical and practical role for the domestic and international legislative system.





**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**


***На правах рукописи***


**ХАЛИГ РАМИЗ оглы ГОДЖАЕВ**


# ИМПЛЕМЕНТАЦИЯ МЕЖДУНАРОДНО-ПРАВОВЫХ НОРМ В СФЕРЕ ГРАЖДАНСКО-ПРОЦЕССУАЛЬНОГО ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5603.01- «Международное право; права человека»**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ - 2015**